

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 224 (21.125)

25 noyabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Şərur rayonunun Dizə kəndində quruculuq işləri aparılmışdır

### *Dizə kənd məktəbi müasir binada fəaliyyət göstərəcəkdir*

Noyabrın 22-də Dizə kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Cəmilə Məmmədova çıxış edərək demişdir ki, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində, eləcə də Şərur rayonunda müasir təhsil infrastrukturu yaradılmışdır. Dizə kənd məktəbinin yenidən qurulması da bu sahədə görülən işlərin tərkib hissəsidir. Yaradılan şərait pedaqoji kollektiv üzərinə daha böyük vəzifələr qoyur, gənclərin hərtərəfli təhsil almasına imkan verir. Cəmilə Məmmədova yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dizə kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: "Ölkəmizdə həyata keçirilən tədbirlər sırasında təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir, təhsilli, vətənpərvər, ixtisaslı və peşə hazırlığına malik olan gənclərin yetişdirilməsi diqqət mərkəzində saxlanılır.



Çünki təhsilə qoyulan sərmayə ölkəmizin gələcəyinə qoyulan sərmayədir".

Ümummilli liderimiz Heydər Əliyevin ***"Təhsil milli məqsədlər, mənafelər əsasında qurulmalıdır"*** fikrini xatırladan Ali Məclisin Sədri demişdir: "Vətənpərvər və təhsilli gənc həm ölkə, həm də cəmiyyət üçün faydalıdır. Ona görə də gənclərin vətənpərvər böyüdülməsi, onların peşə sahibi olması vacib məsələdir. Bu gün məktəblərdə təhsil alan hər bir gənc vətənpərvər böyüdülməli, onlara ölkəmizin gələcək təminatçıları kimi yanaşılmalı, hər bir gəncin bacarıq və maraqlarına uyğun ixtisaslara yönəldilməsi diqqət mərkəzində saxlanılmalıdır".

Qeyd olunmuşdur ki, ölkəmizdə bu tədbirlərin həyata keçirilməsi üçün hər cür şərait yaradılmış, orta, peşə, orta ixtisas və ali təhsil pillələri üzrə tədrisin təşkili təmin olunmuşdur. Bu imkanlardan lazımınca yararlanan, daha yaxşı bilik alan gənclər xarici ölkələrdə ali təhsil almağa göndərilirlər. Yaradılan bu şərait və göstərilən qayğı müəllim və şagirdlər qarşısında mühüm vəzifələr qoyur. Müəllimlər ölkəmizin gələcəyini hazırlamaq kimi mühüm bir vəzifənin məsuliyyətini dərk etməli, gənclərimiz isə ölkəmizin gələcək təminatçıları kimi yetişməlidir.

Ali Məclisin Sədri demişdir: "Bu gün Dizə kənd tam orta məktəbində lazımi şərait yaradılmış, məktəb müasir təhsil sisteminin tələbləri səviyyəsində qurulmuş, zəruri tədris avadanlıqları ilə təmin olunmuşdur. Bütün bunlar da qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir. Ötən tədris ilində məktəbin qazandığı nailiyyətlər tədrisin düzgün qurulması nəticəsində mümkün olmuşdur. Nizam-intizam, müəllim tələbkarlığı və şagird çalışqanlığı gələcəkdə Dizə kənd tam orta məktəbini muxtar respublikanın nümunəvi ümumtəhsil məktəblərindən birinə çevirəcəkdir".

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkürünü bildirmiş, onlara təhsildə uğurlar arzulamışdır.







Açılışı bildirən lent kəsilmiş, məktəb binasına baxış olmuşdur.

Bildirilmişdir ki, 234 şagird yerlik məktəbdə geniş sinif otaqları, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat, müəllimlər otaqları, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Məktəbin zəngin fonda malik olan kitabxanası şagirdlərin elmin sirlərinə dərindən bələd olmalarına geniş imkanlar açır. Kitabxanada 4700-ə yaxın dərslik və bədii ədəbiyyat vardır. Baxış zamanı şagirdlərin dünyagörüşünün formalaşmasında bədii ədəbiyyatlardan mütaliənin əhəmiyyəti qeyd olunmuşdur.

Məktəbdə informasiya texnologiyaları ilə təminata xüsusi diqqət yetirilmişdir. Kompüter otağında 19 kompüter dəsti quraşdırılmış və onların internetə çıxışı təmin edilmişdir. Dərslərin müasir metodlar əsasında təşkili üçün 3 sinif otağında elektron lövhə quraşdırılmışdır. Bu cür müasir tədris avadanlıqlarının tətbiqi Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin yaradılmasına, şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artırılmasına imkan verir. Ali Məclisin Sədri muxtar respublikanın 176 ümumtəhsil məktəbi ilə Hüseyn Cavidin ev-muzeyi arasında videobağlantı vasitəsilə keçilən dərsi izləmişdir.

Kimya-biologiya və fizika laboratoriyalarında lazımi cihazlar, tədris vəsaitləri qoyulmuş, təcrübi məşğələlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Bütün bunlar şagirdlərin biliklərinin təcrübə yolu ilə möhkəmləndirilməsinə və intellektual səviyyələrinin artırılmasına öz töhfəsini verəcəkdir.

2013-2014-cü dərs ilində məktəbi bitirən məzunlardan 5-i ali məktəblərə, 1-i IX sinif bazasından orta ixtisas məktəbinə, 2 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Muxtar respublikada gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, onların idmana olan marağının artırılması, eləcə də asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Bu işə ümumtəhsil məktəblərində də xüsusi diqqət yetirilir. Dizə kənd tam orta məktəbinin idman zalındakı şərait, həmçinin açıq idman qurğuları bədən tərbiyəsi dərslərinin yüksək səviyyədə tədrisinə imkan verəcəkdir. Hər cür təchizata malik olan hərbi kabinədə isə şagirdlər ilkin hərbi biliklərə yiyələnəcəklər.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: "Dizə kənd orta məktəbi müasir tədrisin tələbləri səviyyəsində qurulmuşdur. Ona görə də müəllimlər özləri də bu tədris vəsaitlərini öyrənməlidirlər ki, şagirdlərə də öyrədə bilsinlər. Vətənpərvər və təhsilli olan gənc hansı sahədə çalışmasından asılı olmayaraq ölkəmizə sədaqətlə xidmət edəcəkdir".

Məktəbin müəllimi Rüxsarə Əliyeva minnətdarlıq edərək demişdir ki, istifadəyə verilən hər bir müasir məktəb binası Vətənimizə, xalqımıza xidmətin daha bir ifadəsidir. Hər bir ölkənin inkişafı, ilk növbədə, onun təhsilinin səviyyəsi ilə ölçülür. Bu gün muxtar respublikamızda təhsilin hərtərəfli inkişafı üçün kompleks işlər görülür, hər cür maddi-texniki bazaya malik məktəb binaları tikilib istifadəyə verilir. Müəllimlər yaradılan bu şəraitə öz səmərəli fəaliyyətləri ilə cavab verəcək, təhsilli və vətənpərvər gənclər yetişdirəcəklər.

Məktəb binasının həyətində də geniş abadlıq işləri aparılmış, işıqlandırma sistemi quraşdırılmış, ağac və gül kolları əkilmişdir.

*Ardı 2-ci səhifədə*

# Dizə Kənd Mərkəzi istifadəyə verilmişdir





Dizə kəndində tikilən yeni kənd mərkəzi ayrı-ayrı dövlət strukturlarının vahid mərkəzdə fəaliyyətinə şərait yaradacaqdır. Artıq dövlət qurumları tərəfindən kənd sakinlərinə daha səmərəli xidmət göstəriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

İki mərtəbədən ibarət olan kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, kitabxana, baytarlıq və polis sahə məntəqələri, kənd mədəniyyət evi, klub və 70 yerlik tədbirlər zalı yerləşir. Özünəməxsus üslubda tikilən binanın işıqlı foyesi, geniş və yaraşıqlı iş otaqları vardır. Tədbirlər zalında ictimai-mədəni tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılıb.

Binada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik və kənd bələdiyyəsinin fəaliyyəti üçün hər cür şərait vardır. Rabitə evində quraşdırılan yeni nəsil ATS və poçt şöbəsi əhaliyə müvafiq xidmət göstərəcəkdir.

Yeni Azərbaycan Partiyası Dizə kənd ərazi ilk təşkilatı üçün də ayrıca iş otağı ayrılmışdır. Baxış zamanı qeyd olunmuşdur ki, ərazi ilk təşkilatının 167 üzvü vardır. Onlardan 37-si qadın, 39-u isə gənclərdir.

Mərkəzin birinci mərtəbəsində yerləşən zəngin kitabxanada 5705 kitab vardır. Onlardan 1106-sı latın, 4599-u kiril əlifbası ilə çap olunmuş bədii ədəbiyyatlardır. Binada baytarlıq və polis sahə məntəqələri üçün də nümunəvi iş şəraiti yaradılmışdır.

# Dizə kəndində xəstəxanatipli yeni həkim ambulatoriyası tikilmişdir





Muxtar respublikada səhiyyə sahəsində aparılan quruculuq tədbirləri əhalinin sağlamlığının qorunmasına xidmət edir. Son illər kəndlərdə digər sosial obyektlərlə yanaşı, müasir tibb ocaqlarının da istifadəyə verilməsi sakinlərə keyfiyyətli səhiyyə xidmətinin göstərilməsinə şərait yaratmışdır.

Noyabrın 22-də Dizə kəndində həkim ambulatoriyasının açılışı olmuşdur.

Ali Məclisin Sədri ambulatoriyada yaradılan şərait və əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyəti ilə maraqlanmışdır.

İkimərtəbəli ambulatoriya binası 11 otaqdan ibarətdir. Burada qeydiyyat, stomatoloji kabinə, peyvənd, doğuş, müayinə, mama, palata və manipulyasiya otaqları, aptek vardır. Otaqların hər birinin təyinatına uyğun müasir avadanlıqlarla təchiz olunması tibbi xidmətin nümunəvi təşkilinə imkan verəcəkdir. Hazırda ambulatoriyada 7 nəfər çalışır.

Ali Məclisin Sədri uşaqların dispanserizasiyasının təşkilinin əhəmiyyətini vurğulamış, gigiyenik qaydalara əməl olunması və profilaktik tədbirlərin vaxtlı-vaxtında aparılması barədə tapşırıqlar vermişdir.

# Xidmət mərkəzində nümunəvi şərait yaradılmışdır






Həmin gün Dizə kəndində yeni xidmət mərkəzinin də açılışı olmuşdur.

Xidmət mərkəzində yaradılan şəraitlə maraqlanan Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, mərkəzdə ərzaq və təsərrüfat malları mağazaları, ət satışı yeri, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərir. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, aparılan quruculuq işləri nəticəsində Dizə kəndi də muxtar respublikanın abad kənd yaşayış məntəqələrinin sırasına qoşulmuşdur. Bu gün kənd sakinlərinin bütün sosial problemləri həll olunmuşdur. Həyata keçirilən tədbirlər kənddə uşaqların yaxşı təhsil almasına, sakinlərin sağlamlığının qorunmasına, dövlət qurumlarının səmərəli fəaliyyətinə imkan verəcəkdir. Həmçinin kənddə elektrik enerjisinin və təbii qazın davamlı olması üçün tədbirlər görülmüş, kənd yolu müasir tələblər səviyyəsində yenidən qurulmuş, içməli su xətti çəkilmişdir. Bütün bunlar dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Sakinlər də bu yaradılanlardan, qurulanlardan səmərəli istifadə etməli, onların qorunub saxlanmasında fəallıq göstərməlidirlər.

Kənd sakini Suliddin Fərəcov qeyd etmişdir ki, son illər Dizə kəndində geniş quruculuq işləri aparılmışdır. Kənd körpüsü yenidən qurulmuş, sosial qayğıya ehtiyacı olan ailələr üçün fərdi evlər tikilmiş, nasos stansiyası istifadəyə verilmişdir. Aparılan quruculuq işlərinin davamı olaraq bu gün kənddə yeni sosial obyektlər istifadəyə verilir. Görülən bu işlər ölkəmizdə ümummilli lider Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir. Suliddin Fərəcov kənd sakinləri adından yaradılan şəraitə görə minnətdarlıq etmiş, qurulanlardan, yaradılanlardan səmərəli istifadə edəcəklərinə söz vermişdir.

* * *

Aparılan tikinti-quruculuq işləri çərçivəsində 2 kilometrlik kənddaxili yola yeni asfalt örtük salınmış, 28 su keçidi, 530 metr uzunluğunda beton kanal tikilmiş, yolun kənarları boyunca hasarlar çəkilmişdir. Həmçinin kəndin rabitə sistemi də müasirləşdirilmiş, 1 kilometr fiber-optik, 2 kilometr yeraltı və 9 kilometrdən artıq yerüstü kabellər çəkilmişdir. Kəndin elektrik təchizatı da yaxşılaşdırılmış, 5 min metr uzunluğunda elektrik xətti yenilənmiş, 250 kilovolt-amper gücündə transformator yarımstansiyası əsaslı təmir olunmuşdur. Bununla yanaşı, 350 metr uzunluğunda müxtəlif diametrli qaz xəttinin yeri dəyişdirilmiş, yeni tikililərə 270 metr uzunluğunda qaz xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

2014-cü il "Sənaye ili"dir

# Sənaye inkişaf edən regionun əsas göstəricisidir

*İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizliyə tam nail olunması bütün iqtisadi resursları dövriyyəyə cəlb edə bilən və bununla onların səmərəli istifadəsinə şərait yaradan sənaye məhsulu istehsalından keçir. Sənaye həm də regional inkişafda mühüm rol oynayır. Keçmiş dövrə məxsus mülahizələrin əksinə olaraq, sənaye müəssisələrinin regionlarda təşkili əhalinin məşğulluq problemlərinin həllindən əlavə ucuz xammal ehtiyatlarından səmərəli istifadə olunmasına, iri şəhərlərdə yol-nəqliyyat problemlərinin yaranmamasına, ekoloji vəziyyətin böhran səviyyəsinə çatmadan nəzarətdə saxlanmasına şərait yaradır.*

Ölkəmizin regional inkişaf strategiyası müstəvisində sənaye istehsalına verilən diqqət hələ neçə illər öncəsindən Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında öz bəhrəsini verməyə başlamışdır. Məlum çətinliklərə baxmayaraq, qısa müddət içərisində regionda çoxçeşidli sənaye məhsulu istehsalına nail olunması və ixracyönümlü məhsul istehsalına başlanılması sənayenin inkişafının yalnız mərkəz və ona yaxın ərazilərdə mümkün ola biləcəyinin ən tutarlı inkarıdır. Naxçıvanda artıq sübut olunmuşdur ki, işgüzarlıq və təşkilatçılıq olan yerdə hər bir yerli xammaldan səmərəli istifadə etmək və onun əsasında sənaye müəssisəsi qurmaq mümkündür.



Lakin muxtar respublikanın müasir sənaye potensialına qovuşması asan olmamışdır. Belə ki, 1924-cü ildə yaradılan muxtar respublikanın sənaye potensialı barmaqla sayıla biləcək kustar üsulla işləyən və əsasən də, yüngül və yeyinti sahələrinə aid olan müəssisələrdən ibarət idi.

Tarixə dönüb baxsaq, görərik ki, 1965-ci ildə muxtar respublika sənayesi cəmi 40 adda məhsul istehsal edirdi. Bunun səbəbləri isə 1956-cı ildən başlayaraq muxtar respublika iqtisadiyyatında yerli xammaldan asılı olan sahələrin durğunluq dövrü keçirməsi, ənənəvi kənd təsərrüfatı sahələrinin xammalını emal edən sənaye sahələrinin tənəzzülü idi. Belə ki, həmin dövrdə muxtar respublikada yeyinti sənayesinin həcmi 5 faiz artmış, o dövr üçün respublikanın kimya sənayesinin inkişaf etdirilməsi üçün çox lazımlı xammal olan duz hasilatına ciddi fikir verilməmişdi. Muxtar respublikanın iqtisadiyyatı əvvəlki kimi xammal bazası rolunu oynayan kənd təsərrüfatı yönümlü istiqamətdə inkişaf etdirilirdi.

Azərbaycanın yeni tarixinin başlandığı 1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə bütün respublikada olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da iqtisadi-mədəni həyatında köklü dəyişikliklər baş vermişdir. Bu dövrdən başlayaraq respublikanın aqrar rayonlarının inkişafına ciddi diqqət yetirilmişdir. Belə ki, 1970-1975-ci illərdə muxtar respublikanın xalq təsərrüfatının müxtəlif sahələrinə əsaslı vəsait qoyuluşunun həcmi buna qədərki 46 ildəkindən, yəni 1925-1970-ci illərdəkindən xeyli çox olmuşdu. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun artımı 1970-1985-ci illər arasındakı dövrdə dəfələrlə artım dinamikası ilə müşayiət olunmuşdur. Beləliklə, respublika üzrə sənaye məhsulu istehsalında muxtar respublika sənayesinin xüsusi çəkisi artaraq 1970-ci ildəki 1,1 faiz səviyyədən 1985-ci ildə 2,3 faiz səviyyəsinə çatmışdı.

Bu dövrdə bir sıra sənaye məhsulları – daşduz, mineral sular, alt trikotaj məmulatları, konserv, ipək xammalı, şərab, üzlük travertin istehsalında Naxçıvan Muxtar Respublikası Azərbaycanda əsas paya sahib olmuşdu. Yerli tələbatın ödənilməsi ilə yanaşı, bu dövrdə muxtar respublikada istehsal olunan travertin üzlük plitələr ittifaqın digər yerlərinə və xarici ölkələrə də ixrac olunurdu.

Bütövlükdə, 1969-1987-ci illər arasında muxtar respublikada sənayenin yüksələn xətlə inkişafı iqtisadiyyatın digər sahələrinin də inkişafına təkan vermiş, 1985-ci ildə iqtisadiyyatın bütün sahələrində işləyənlərin ümumi sayı 1975-ci ildəki müvafiq göstəricidən 2,1 dəfə çox olmuşdur.

1987-1993-cü illərdə baş verən məlum hadisələr Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına ciddi ziyan vurmuşdur. Hələ 1985-ci ildən başlayaraq ittifaqın Azərbaycan da daxil olmaqla bir sıra respublikalarının iqtisadiyyatına zərbə vuran dırnaqarası islahat məqsədli qərarlar üzümlüklərin məhvinə və buna bağlı emal sənayesi sahələrinin işini iflic etməyə yönəlmişdi. Bundan sonra cərəyan edən hadisələr, o zamankı sovet rəhbərliyinin Azərbaycana qarşı zidd siyasəti, Ermənistanın işğalçılıq hərəkətləri, bütövlükdə, respublikanın və blokada vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına, onun sənayesinin inkişafına mənfi təsir göstərmişdir. 1990-1993-cü illərdə xalqımızın xilaskarı Heydər Əliyevin Naxçıvandakı gərgin fəaliyyəti təkcə onun iqtisadiyyatının deyil, bir muxtariyyət kimi özünün də məhv olmasının qarşısını aldı. Dahi şəxsiyyətin səyləri ilə 1991-1992-ci illərdə qonşu Türkiyə və İran respublikaları ilə yaradılmış əlaqələr blokadada yaşayan muxtar respublikanın həyati vacib problemlərinin həllində mühüm rol oynadı. Bu dövrdə Naxçıvanda aparılmış ciddi islahatlar təkcə ölkəmizin bazar iqtisadiyyatına keçid mərhələsində ilklərdən olmamış, daha sonrakı iqtisadi islahatların da uğurlu təcrübəsi olmuşdur.

1993-2003-cü illər hər bir azərbaycanlının həyatında silinməz iz qoymuşdur. Bu dövr təkcə iqtisadi və mədəni həyatın müəyyən bir sahəsindəki irəliləyişlərlə deyil, eyni zamanda ölkənin bütövlüyünün qorunmasındakı misilsiz xidmətlər və Azərbaycanın ən yeni tarixinin başlanğıcının qoyulduğu günlərlə yadda qalmışdır. Ağır blokada şəraitində yaşayan Naxçıvanda 1996-cı ildən başlayan quruculuq və inkişaf xətti sonrakı illərdə özünü bütün ölkədə nümunə kimi göstərilən ilklərlə doğruldaraq bir idarəetmə modeli kimi tarixə düşmüşdür.

Bu dövrə Naxçıvanda iqtisadiyyatın aparıcı sahəsi kimi sənayenin inkişaf etdirilməsi istiqamətində atılan qəti addımlar dövrü deyə bilərik. Regionun iqtisadi təhlükəsizliyinin təmin olunması üçün bu, çox vacib idi. Fəaliyyətini dayandırmış sənaye müəssisələrinin yenidən işə salınması və yeni müəssisələrin yaradılması sayəsində 2003-cü ildə 1993-cü ildəkinə nisbətən 3,4 dəfə çox sənaye məhsulu istehsal olunurdu. Artıq bu dövrdə muxtar respublikanın aqrar regiondan aqrar-sənaye regionuna çevrilməsi üçün etibarlı zəmin yaradılmış, mühüm istehsal və bazar infrastrukturu formalaşdırılmış, sosial infrastruktur yenilənməyə başlanmışdı. Və ümumilikdə, bu mərhələ Naxçıvan Muxtar Respublikasında bütün sahələri əhatə edən yüksəlişin başlanğıc, kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçmə dövrü idi. Belə ki, 1993-cü ilə nisbətən 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının Ümumi Daxili Məhsulunun həcmi 6,8 dəfə, əhali gəlirləri isə 10,5 dəfə artmışdır.

2004-cü ildən ölkəmizdə həyata keçirilən regional inkişaf proqramlarının Naxçıvan Muxtar Respublikasında da uğurlu icrası iqtisadiyyatın bütün sahələri ilə yanaşı, sənayenin də güclü inkişafına gətirib çıxarmışdır. Naxçıvan qısa müddət ərzində işçi göndərən regiondan əcnəbi işçi qəbul edən regiona çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasında 2003-cü ildən başlayaraq davam edən intibahın növbəti mərhələsi həyatın bütün sahələrində davam etməkdədir. Muxtar respublikada insanların rifahının yüksəlməsinə yönəlmiş siyasət, ilk olaraq, özünü daha çox elm və əmək tutumlu, innovativ yüklü sənaye sahələrinin yaradılması istiqamətində göstərir. Ölkə başçısının iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunması və neftdən asılılığın aradan qaldırılması istiqamətində müəyyən etdiyi strategiyaya uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında həm yerli xammala əsaslanan, həm də yüksək texnologiya bazalı sənaye müəssisələrinin yaradılması işi uğurla davam etdirilir. Özəl sektora göstərilən qayğı və diqqət, sahibkarlığın dəstəklənməsi konkret olaraq öz nəticəsini sənaye sahəsində də göstərmişdir. Xammal ixracı yerinə hazır məhsul ixracının daha sərfəli olduğunun bir aksiom kimi qəbul edildiyini bir daha xatırladaraq bu rəqəmlərin müqayisəsi yerinə düşər: 2003-cü illə müqayisədə 2013-cü ildə Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun həcmi 49 dəfə, ixracın həcmi isə 96,6 dəfə artmışdır. Üzərində "Naxçıvan Muxtar Respublikasında istehsal olunmuşdur" etiketli yüzlərlə adda məhsul buraxan müəssisələr indi Naxçıvanı bir sənaye regionu kimi təkcə ölkəmizdə deyil, yaxın regionda tanıdır, yaxın-uzaq onlarla ölkə ilə idxal-ixrac əlaqələri uğurla davam etdirilir.

Hazırda Naxçıvan Muxtar Respublikasının sənaye inkişafı göstəriciləri çox qabarıqdır. 2003-cü illə müqayisədə regionda sənaye müəssisələrinin sayı 7 dəfə artaraq 2013-cü ildə 438-ə çatmışdır. Sənayenin regionda aparıcı mövqeyə gəlib çatması onun kütləcə həcminin artmasına da səbəb olmuşdur. Belə ki, 2013-cü ildə istehsal olunmuş 2 milyard 339 milyon manat həcmli Ümumi Daxili Məhsulda sənaye 862 milyon 871 min manat həcmlə ilk yeri tutmuşdur. 2013-cü ildə muxtar respublikanın sənaye müəssisələrində 15385 nəfər işçi çalışmışdır ki, bu da 2003-cü ildəki müvafiq göstəricini 5,4 dəfə üstələmişdir. Muxtar respublikanın sənaye sahəsində orta aylıq əməkhaqqının səviyyəsi 2013-cü ilin sonuna 356,3 manata çatmaqla, 2003-cü ildəki müvafiq göstəricidən 4,7 dəfə çox olmuşdur. Ötən ildən Naxçıvan Muxtar Respublikasında sənaye parklarının yaradılmasına başlanılması gələcəkdə bu mühüm sahənin daha da genişləndirilməsinə imkan verəcəkdir.

Hazırda muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Təkcə 2014-cü ilin yanvar-oktyabr aylarında sənayedə 743 milyon 886 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələmişdir. Muxtar respublika sənayesində 116 növü ərzaq, 234 növü qeyri-ərzaq olmaqla, 350 növdə məhsul istehsal olunmaqdadır. Əlbəttə, bu, son hədəf deyildir. Muxtar respublikanın malik olduğu potensial, insan resursları daha çox növ və çeşiddə sənaye məhsulu istehsal etməyə imkan verir. Bölgənin təbii ehtiyatları, işgüzar fəaliyyətin dəstəklənməsi və tranzit imkanları burada daha geniş istehsalyönümlü layihələrin həyata keçirilməsi imkanları yaradır.

*Qarşıya qoyulmuş məqsəd aydın olanda çatılması mümkün olmayan hədəf yoxdur. Hələ on il əvvəl Naxçıvanda avtomobil istehsal olunacağını düşünəndə bunun, bəlkə də, çətin iş olduğunu deyə bilərdilər. Ancaq bunun real olduğunu görüb, onu da düşünürsən ki, istənilən şəraitdə, hər hansı çətinliklər olduqda belə, ürəyində Vətən sevgisi, çalışmaq əzmi olan hər kəs uğur qazanacaqdır. Naxçıvanın, naxçıvanlıların tarixin dönüş anlarındakı bu uğurları da onların sədaqətinin, gələcəyə inamının, rəhbəri ətrafında sıx birləşmələrinin qələbəsidir. Bu, onların tarixi muxtariyyət qələbəsidir.*

**✍ Əli CABBAROV**

Naxçıvanda enerji təhlükəsizliyi məsələlərinin həll olunmasında növbəti mərhələ kimi bərpaolunan alternativ enerji mənbələrindən istifadəyə geniş yer verilir. Hazırda dünyada Günəş, külək və bioqaz enerji mənbələrindən

## Günəş enerjisi layihələri barədə fikir mübadiləsi aparılıb



istifadə həm ekoloji təmizliyi, həm də tükənməzliyi ilə diqqəti cəlb edir. Muxtar respublikamızın da enerji ehtiyaclarının tamamilə yerli imkanlar hesabına ödənilməsi üçün belə layihələrin tətbiqi gələcəkdə böyük perspektivlər vəd edir. Qeyd edək ki, Naxçıvandakı küləkli və günəşli günlərin enerji potensialından istifadə olunması mühüm dövlət proqramlarında da öz əksini tapıb.

Noyabrın 24-də Naxçıvan Biznes Mərkəzində Günəş enerjisindən istifadə olunması məsələləri üzrə Naxçıvana dəvət olunmuş belçikalı qonaqlar – "Soltehc" şirkətinin baş meneceri Mişel Kallerami, şirkətin mühəndisi Jerome Alba və Belçikanın Lommel şəhəri merinin məsləhətçisi Elnur Əliyevlə muxtar respublikamızın bu sahə üzrə mütəxəssisləri arasında müzakirələr aparılaraq perspektivlər nəzərdən keçirilib, Naxçıvanda Günəş enerjisindən istifadə üzrə yeni innovativ layihələrin imkanları qiymətləndirilib.

Həmin gün qonaqlar Naxçıvan Biznes Mərkəzində yerli məhsulların sərgisi, Naxçıvanın gəzməli, görməli yerləri, tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olublar.

## Növbəti iməciliklərdə də yeni yaşıllıqlar salınıb



***Naxçıvan Muxtar Respublikasında ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi məqsədilə həyata keçirilən iməciliklər mütəşəkkilliklə davam etdirilir. Belə tədbirlərin nəticəsidir ki, son illərdə diyarımızda yaşıllıq sahələrinin həcmi bir neçə dəfə artıb, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınıb.***

Noyabrın 22-də keçirilən iməciliklərdə mövcud yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, yeni ərazilərdə belə sahələr genişləndirilib.

Naxçıvan şəhərinin sakinləri tərəfindən Uzunoba Su Anbarının aşağı hissəsindəki 1,5 hektarlıq ərazidə 100 ədəd meyvə, 915 ədəd meşə ağacı əkilib və əkilən sahələr suvarılıb. Müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda Naxçıvan-Sədərək magistral yolunun Yuxarı Daşarx, Mahmudkənd və Cəlilkənd hissəsində 500 ədəd meyvə, 1500 ədəd meşə ağacı əkilib.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Naxçıvan-Şahbuz avtomobil yolunun kənarındakı 8 hektarlıq ərazidə 200 ədəd meşə, 610 ədəd meyvə, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında isə 500 ədəd meyvə ağacı əkilib.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilib, Naxçıvan-Ordubad magistral yolunun "Qapıcıq" adlanan ərazisində 250 ədəd, Dəstə kəndi ərazisində 150 ədəd, Əylis düzündə 400 ədəd, Qazi massivində 200 ədəd meyvə ağacı, kənd ərazilərində 700 ədəd meyvə və 500 ədəd meşə, rayon Suvarma Sistemləri İdarəsinin ərazisində 25 ədəd həmişəyaşıl ağac və 120 ədəd gül kolu əkilib.

Culfa rayonunun kəndlərində 2900 ədəd meşə və 1200 ədəd meyvə ağacı, Culfa şəhərinin ərazisində və Bənəniyar kəndində yeni tikilmiş sosial obyektlərin ətrafında 130 ədəd həmişəyaşıl ağac və 574 ədəd gül kolu, Culfa şəhərində 270 ədəd meyvə ağacı əkilib.

Kəngərli rayonunun Qıvraq qəsəbəsində və Qarabağlar kəndinə gedən yolun kənarlarında 2 min ədəd meyvə ağacı əkilib.

Şahbuz şəhərində 1,1 hektarlıq yeni salınmış bağda 500 ədəd meyvə ağacı və 300 ədəd həmişəyaşıl ağac, Naxçıvan-Batabat magistral yolunun kənarlarında və Gömür kəndi ərazisində 1200 ədəd meyvə ağacı, 1300 ədəd həmişəyaşıl ağac əkilib.

Sədərək rayonunda da iməciliklərdə fəallıq müşahidə olunub. Naxçıvan-Sədərək magistral yolunun kənarlarında 800 ədəd meşə ağacı, Heydərabad qəsəbəsindəki park və xiyabanlarda 600 ədəd gül kolu və 90 ədəd həmişəyaşıl ağac əkilib.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik-abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Tanınmış bəstəkar Naxçıvanda ustad dərsləri keçib





*Musa Mirzəyev Azərbaycan professional bəstəkarlıq məktəbinin layiqli nümayəndələrindən biri, Azərbaycan Respublikasının Xalq artisti, professor, "Şöhrət" və "Şərəf" ordenli, Prezident təqaüdçüsüdür. Ötən həftə Naxçıvan Muxtar Respublikasında olan Musa Mirzəyev diyarımızın bir sıra mədəniyyət müəssisələri, təhsil ocaqları ilə tanış olub, ustad dərsləri keçib.*

Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında keçilən ustad dərsindən əvvəl çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Musa Mirzəyevin yaradıcılığı haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Musa Mirzəyevin yaradıcılığı genişspektrlidir. O, musiqi tarixinə tanınmış bəstəkar, pianoçu, pedaqoq və ictimai xadim kimi daxil olub. Musa müəllimin musiqisi Azərbaycanın sərhədlərini aşaraq dünyanın bir çox ölkələrində tanınmış orkestrlərin, ifaçıların və dirijorların təfsirində səsləndirilib, eləcə də bu əsərlərin notları və partituraları dəfələrlə nəşr edilib. Q.Qarayev məktəbinin istedadlı nümayəndələrindən biri olan Musa Mirzəyevin yaradıcılığında orkestr əsərləri, həmçinin kamera-instrumental və vokal əsərlər üstünlük təşkil edir.

Qeyd olunub ki, bəstəkar həm də uzun illərdir, pedaqoji fəaliyyət göstərərək öz bilik və bacarığını gənc musiqiçi nəslin yetişdirilməsinə sərf edir. Bu gün keçilən ustad dərsi də bu məqsədə xidmət edir.

Ustad dərsində danışan Musa Mirzəyev Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük əməyi olan musiqi xadimlərinin yaradıcılıq istiqamətlərindən bəhs edib.

Sonra konservatoriyanın müəllim və tələbələrinin ifasında Musa Mirzəyevin "Adajio", "Yeni il", "Lirik sonatina", Vasif Adıgözəlovun "Qərənfil", Ceyhun Allahverdiyevin "Dəniz və səma", Kamal Əhmədovun "Kapriççio" əsərləri səsləndirilib. Ustad dərsində professor Musa Mirzəyev tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Həmin gün Naxçıvan Musiqi Kollecində də professor Musa Mirzəyev ustad dərsi keçib.

* * *

Professor Musa Mirzəyevlə Naxçıvan Bəstəkarlar Təşkilatında keçirilən görüş də maraqlı olub. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şəmsəddin Qasımov açıb. Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru Yeganə Əsədova bəstəkarın həyat və yaradıcılığı barədə tədbir iştirakçılarına məlumat verib. Qeyd olunub ki, Musa Mirzəyev bu gün də gənclik eşqi ilə yazıb-yaradır. Onun yaradıcılığında Naxçıvan mövzusu da özünə yer tapıb.

Tədbirdə çıxış edən tanınmış bəstəkar və pedaqoq bu gün qədim diyarda fəaliyyət göstərən bəstəkarlara öz tövsiyələrini verib.

Tədbir iştirakçıları müəllifin ifasında onun əsərlərini dinləyiblər.

* * *

Ordubad Şəhər Uşaq Musiqi Məktəbində keçirilən görüşdə qeyd olunub ki, mədəniyyətin, incəsənətin, musiqinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Bunun nəticəsidir ki, naxçıvanlı mədəniyyət və incəsənət ustaları da öz yaradıcılıqlarını genişləndirir, daha geniş sferada tanınırlar.

Sonra musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında Musa Mirzəyevin əsərləri səsləndirilib.

**Xəbərlər şöbəsi**



## Hüquq olimpiadasının ikinci turu başa çatıb

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Təhsil Nazirliyinin təşkilatçılığı ilə noyabrın 21-də muxtar respublikanın tam orta məktəblərinin şagirdləri, noyabrın 22-də isə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş hüquq olimpiadasının II turu keçirilib.

Yekun turda Naxçıvan Muxtar Respublikasının rayon və şəhər məktəbləri üzrə, ümumilikdə, 74 şagird, 31-i ali təhsil ocaqlarından, 25-i orta ixtisas təhsili müəssisələrindən olmaqla, 56 tələbə iştirak edib. Birinci turda olduğu kimi, test üsulu ilə keçirilən olimpiadanın ikinci turunda da şagirdlər və tələbələr Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, muxtariyyətin tarixi və hüquqi əsaslarına dair 60 sual üzrə biliklərini sınayıblar.

Olimpiadanın II turunda ən yüksək bal toplayan şagird və tələbələrə diplomlar təqdim olunacaq.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***



# Oxucu məktubları



## Övladımın təhsilə cəlb olunması bütün ailəmizi sevindirib



Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlar bu gün davamlı dövlət qayğısı əhatəsindədirlər. Bu il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi bizim də ürəyimizcə oldu. On altı yaşında olan məhdud fiziki imkanlı övladım Mayisənin də həmin mərkəzdə təhsilə cəlb edilməsi ailəmizi sevindirdi. Qısa müddət ərzində qızım hərfləri öyrənməyə başladı. Hər həftənin bazar ertəsi, çərşənbə və cümə günləri saat $12^{30}$-dan $14^{30}$-dək qızımın kompüter arxasında oturaraq həvəslə çalışmasına, Nuranə müəllimənin səbirlə, təmkinlə qızıma və qızım kimi digər uşaqlara dərs keçməsinə bir valideyn kimi necə sevinməyim?

Kəngərli rayonunun Qıvraq qəsəbəsində oturub Naxçıvan şəhəri ilə əlaqə saxlayaraq bilik öyrənmək üçün yaradılmış bu tədris sistemi muxtar respublikada inkişaf və tərəqqinin daha bir ifadəsi, insan amilinə qayğının bariz təcəssümüdür.

Onu da deyim ki, qızımın Latviya Respublikasına pulsuz müalicəyə göndərilməsi də bu qəbildən olan uşaqların daim dövlətin nəzarətində olmasının göstəricisidir.

Bu gün ailəmiz o qədər sevinir ki, bunu sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bizim də ümidlərimiz, arzularımız çin olur. Sevinirik ki, övladımız təhsil alır. Bir valideyn kimi ailə üzvlərimiz adından yaradılan şəraitə, göstərilən qayğıya görə muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

***Təyyar SEYİDOV***
***Kəngərli rayonu, Qıvraq qəsəbə sakini***

## Yeni binada yaradılan şərait rahatlığımızı təmin edib



***Hörmətli redaksiya.***

Bu məktubu sizə Naxçıvan şəhərindən yazıram. Uzun illərdir ki, ailəmizlə Naxçıvan şəhərində yaşayırıq. Naxçıvan şəhərinin ildən-ilə, aydan-aya deyil, günbəgün gözəlləşməsi hər birimizi sevindirir. Şəhərimizə baxdıqca insanın könlü açılır. Yeni yaradılan bir-birindən gözəl binalar, yaşayış kompleksləri, küçə və parklar hər birimizin ürəyincədir.

Şəhərimizin təmizliyi, yolların rahatlığı isə bu gözəlliyi daha da artırır. Yaşadığımız Atatürk küçəsindəki 5 nömrəli yaşayış binası köhnə tikililərdən idi. Düzdür, binada yaşamaq üçün zəruri ehtiyaclar – təbii qaz, elektrik enerjisi daimi olsa da, çətinliklərimiz az deyildi. Necə deyərlər, köhnə elə köhnədir. Həmişə şəhərimizdəki əksər yaşayış binalarının müasir formada yenilənməsini gördükcə çox sevinir, fikirləşirdik ki, nə zamansa bu müasirlikdən bizim binaya da pay düşəcək. Bu ilin əvvəllərində yaşadığımız binada əsaslı yenidənqurma işlərinə başlandı. Bina müasir tələblərə uyğun olaraq bu yaxınlarda sakinlərin istifadəsinə verildi. İndi mənzillərimizin hər birinin sahəsi 30 kvadratmetr artırılıb, yaşayış üçün hərtərəfli şərait yaradılıb.

Binanın həyətində abadlıq işləri aparılıb, hər tərəfdə təmizlik və gözəllik hökm sürür. Bir daha qəzet vasitəsilə bu yaradılanlara görə dövlətimizə minnətdarlığımızı bildiririk.

***Ramazan ABBASOV***
***Naxçıvan şəhər sakini***

## Dövlətimizə hər zaman minnətdaram

Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Yeni xəstəxana binaları tikilir, səhiyyə ocaqları müasir avadanlıqlarla təchiz olunur. Mən də xroniki böyrək çatışmazlığından uzun illərdir, əziyyət çəkirdim. Əvvəllər muxtar respublikamızda hemodializ aparatlarının məhdudluğu üzündən paytaxt şəhərimiz Bakıya, qonşu xarici ölkələrə gedirdim. Və bunun üçün xeyli vəsait lazım idi. 79 yaşım var və yaşlılıq imkan vermir ki, çox yol gedəm.

Artıq o əziyyətli günlərim arxada qalıb. Rayonumuzda müasir xəstəxana tikilib. O zaman xəstəxana inşa olunanda, ilk olaraq, bu aparatın olub-olmaması ilə maraqlandım. Eşidəndə ki, belə bir aparat rayonumuzda da olacaq, çox sevindim. İndi, şükür, həm ailəmin yanındayam, həm də rayon xəstəxanasında həkim tərəfindən təyin olunmuş proqrama uyğun həftədə iki və ya üç dəfə 4 saat olmaqla hemodializ xidmətindən yararlanıram. Onu da xüsusilə qeyd etməliyəm ki, pulsuz dərman preparatları ilə tam təmin olunuruq. İndi özümü tam normal hiss edirəm.

Mən qəzet vasitəsilə ailəm ilə birlikdə dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Sevincimi ifadə etməyə sözümün gücü çatmır. Sanki yenidən həyata dönmüşəm. Bütün bunlar muxtar respublika sakinlərinin sağlamlığına böyük diqqət yetirilməsinin ifadəsidir.

***Arif NAĞIYEV***
***Culfa rayon sakini***

## Göstərilən dövlət qayğısı sayəsində fəaliyyətimizi daha da genişləndirmişik

***Naxçıvan Muxtar Respublikasında özəl bölməyə, sahibkarlıq fəaliyyətinə yaradılan şərait, göstərilən dövlət qayğısından kollektivimiz də bəhrələnib. Uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisəmizin daha münasib yerə köçürülməsi üçün 2010-cu ilin yanvar ayında Sahibkarlığa Kömək Fondundan 560 min manat güzəştli kredit ayrılıb.***

Layihəyə uyğun olaraq, Naxçıvan şəhərində zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət yeni bina inşa edilib. Müəssisəmizdə keyfiyyətli istehsal üçün Almaniya, Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Burada kostyum istehsalı sahəsi fəaliyyətə başlayanadək bu məhsullara olan tələbatın çox hissəsi idxal hesabına ödənilirdisə, gündəlik istehsal gücü 100 dəst kostyum olan yeni istehsal sahəsinin fəaliyyətə başlaması ilə həmin məhsullara olan tələbatın daxili imkanlar hesabına ödənilməsi təmin edilib.

Sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə müəssisədə istehsal edilməsi məqsədilə yeni – köynək istehsalı sahəsi yaradılıb. Bu məqsədlə biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunub. Layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 165 min manat güzəştli kredit ayrılıb. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi 39 ünvanında yerləşən binada yeni istehsal sahəsi yaratmaq üçün təmir-bərpa və yenidənqurma işləri aparılıb. Layihəyə uyğun olaraq, ümumi sahəsi 654 kvadratmetr olan binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları quraşdırılıb. Türkiyənin "Talay makina" şirkəti ilə bağlanmış müqaviləyə uyğun olaraq, köynək istehsalı sahəsində Yaponiya və Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal gücü gündə 1000 ədəd köynək olan yeni istehsal sahəsinin işə düşməsi ilə daxili bazarın tələbatının tamamilə ödənəcəyi qənaətindəyik.

Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə yaradılan şəraitə, göstərilən qayğıya görə dövlətimizə minnətdarıq.

***Mehrəngiz ƏKBƏROVA***
***"Zümrüd" Kiçik Müəssisəsinin icraçı direktoru***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 985